Ədəbiyyat qəzeti

4 5 dekabr 2020-ci il



# AD GÜNÜN MÜBARƏK, KAMAL!

ANAR

...Çox-çox illər bundan əvvəl Moskvada təhsil alan azərbaycanlı tələbələr məni görüşə dəvət etmişdilər. Görüşdə mənim haqqımda məruzə edən gənc aspirantın orijinal mülahizələri, yazdıqlarıma gözlənilməz baxışla yanaşması diqqətimi çəkdi. Bu gənc - Kamal idi. Hətta görüş əsnasında Kamalın mənə verdiyi sual da yadımda qalıb... "Ağ liman" povestinin personajlarından biri - Dadaş oğlunu Moskvada ali məktəbə qəbul etdirmək üçün məktub yazır. O görüşdə Kamal qəfilcən mənə belə bir qəribə, qeyri-adi sual verdi: - Dadaşın oğlu instituta daxil ola bildimi?

Doğrusu, onacan bu barədə düşünməmişdim, daha doğrusu, bu ağlıma gəlməmişdi. Amma bu sual bir növ "Ağ liman"ın inandırıcılığını təsbit edirdi. O dərəcədə inandırıcı ki, oxucu personajların bədii mətndə yer almayan, amma real həyatda davam edən talelərini təsəvvürlərində canlandırmağa çalışır, sonralar haqqımda yazdığı məqalədə bir məqam da Kamala gənclik illərindən xas olan orijinal düşüncə tərzini göstərirdi. O, qeyd edirdi ki, müəllif, müəyyən personajının taleyilə bağlı hansı məsələnisə bilmədiyini etiraf edərkən əsərinin gerçəklik gücünü artırır, yəni "nəql etdiyim hadisələr o qədər realdır ki, bəzi şeyləri mən özüm - müəllif də bilmirəm". Məncə, bu çox dəqiq və dərin müşahidədir.

Məqalədə işlətdiyi "desant cümlə" ifadəsi də, yanılmıramsa, məhz Kamalın uğurlu tapıntısıdır.

Ədəbi həyatımızda Kamal Abdullanın ciddi dilçi alim kimi, tənqidçi kimi mötəbər yeri var... Özünü alim kimi təsdiq edəndən az sonra Kamal bədii yaradıcılıqla da məşğul olmağa başladı, hekayələr, povestlər, romanlar, pyeslər, şeirlər yazdı və qısa zaman ərzində tək Azərbaycanda deyil, Rusiyada, Türkiyədə də tanındı, Fransada, başqa ölkələrdə, o sıradan çox uzaq məmləkətlərdə - Yaponiyada, Braziliyada kitabları nəşr olundu. Yaradıcılığıyla ətraflı tanış olandan sonra Kamal Abdulla haqqında iri bir esse də yazmışdım. Bu essedə Kamalın istər bədii əsərləri, istərsə də elmi araşdırmaları üçün səciyyəvi bir cəhəti - gözlənilməz baxış bucağını vurğulayırdım.

Bu bənzərsizlik onun da, mənim də qibtə etdiyimiz nadir ədəbiyyat sərvətimizə - "Kitabi-Dədəm Qorqud"a yanaşmada da aydın görünür. "Kitabi-Dədəm Qorqud" haqqında dastanın öz həcmindən qat-qat böyük tədqiqatlar, araşdırmalar, kitablar yazılıb - Azərbaycanda da, Türkiyədə, Rusiyada, Avropada da... Kamalın dastana baxışı fərqli və orijinaldır.

Onun bədii yaradıcılığına inamım və rəğbətim yeni əsərilə - "Sehrbazlar dərəsi"lə tanış olarkən daha da artdı.

"Sehrbazlar dərəsi" Şərq macəra üslubunun dünya ədəbiyyatının ən yeni, çağdaş ədəbi təmayüllərilə üzvi vəhdətindən yaranmış bir romandır və müasir nəsrimizin ciddi uğuru sayıla bilər...